# Heydər Əliyev məktəbi:
## güclü, sözübütöv, nitqi rəvan...

**Ömür yalnız təqvimin hökmüylə yaşanmış günləri ifadə etmir. Ömür arxada qalan günləri əks etdirən mübarizələr, uğurlar, illərin köksündə qərar tutan böyük əməllərdir.**

**Heydər Əliyev ömrü boyu xalq, dövlət üçün çalışdı, cahanşümul uğurlara imza atdı. Bu gün də dünənki kimi yenə bütün Azərbaycanla, Türk dünyası ilə birlikdədir...**

...1969-cu ilin iyulunda Sovet Azərbaycanının siyasi həyatında mühüm hadisə baş verdi, məmləkətə rəhbərlik Heydər Əlirza oğlu Əliyevə həvalə edildi. Günlər, həftələr, illər ötdükcə doğma yurdumuzun ictimai-siyasi, mədəni həyatında böyük dəyişikliklər oldu. Heydər Əliyevin prinsipiallığı, işgüzarlığı, dövlətin, xalqın idarə olunmasındakı novator axtarışları öz bəhrəsini verir, onun şəxsi nüfuzu gündən-günə artırdı. O zaman ittifaqın tərkibində olan müttəfiq respublikaların bir çoxuna mötəbər şəxslər rəhbərlik edirdi. Məsələn, Şerbitski (Ukrayna), Maşerov (Belorusiya), Rəşidov (Özbəkistan), Kunayev (Qazaxıstan) bu qəbildən idi. Onların hamısı Sov. İKP MK Siyasi Bürosunda təmsil olunurdular.

Azərbaycan liderinin qeyri-adi işgüzarlığı, çoxşaxəli təşkilatçılıq fəaliyyəti barədə artıq mərkəzdə də, ən nüfuzlu məclislərdə ağızdolusu danışılır, iş təcrübəsi örnək göstərilirdi. Beləliklə, xalqımızın böyük oğlu da Siyasi Büro üzvlüyünə namizəd seçildi. Xalqımızın sevinci hədsiz idi. Bəziləri, hətta rusiyalı siyasətçilər bunu doğru seçim adlandırır, Siyasi Büronun Heydər Əliyev kimi çevik, prinsipial, geniş erudisiyalı bir işçiyə ehtiyacının olduğunu bildirirdilər. Az sonra bu mülahizələr özünü doğrultdu.

1982-ci ildə Sov İKP MK Siyasi Bürosunda dəyişikliklər baş verdi. Y.V.Andropov dövlət başçısı seçildikdən sonra Heydər Əliyevə SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini kimi məsuliyyətli və şərəfli bir vəzifə etibar olundu. SSRİ-nin, eləcə də Rusiyanın tarixi ərzində Heydər Əliyev türk dünyasından, müsəlman aləmindən ilk insan idi ki, böyük bir dövlətin hökumətinə başçılıq edirdi. Hakimiyyətin bütün rıçaqları Heydər Əliyevin əlində cəmləşmişdi.

Mərkəzi hökumətdə vaxtilə bir çox məsul post tutan Y.Ckaskov deyirdi: "Hökumətin idarə olunmasında 18 əsas sahənin kurasiyası Heydər Əliyevə tapşırılıbsa, bu o deməkdir ki, hökumətə elə o özü tam başçılıq edir. Yuri Andropov bütün məsələlərin həllində məhz onun fikrini və rəyini öyrənirdi".

M.Qorbaçovun MK-ya Baş katib seçilməsi ilə mühit dəyişdi. Heydər Əliyevin böyük nüfuzu onu narahat edirdi. Digər tərəfdən isə sağı-solu erməni millətindən olan hiyləgərlərlə əhatə olunması M.Qorbaçova böyük təsir göstərirdi. Ona anladırdılar ki, Heydər Əliyevlə üzülüşməsə, işləri pis sonluqla bitəcək. Beləcə, M.Qorbaçov Heydər Əliyevi özünə ən güclü rəqib görür və onun hakimiyyətdən uzaqlaşdırılması üçün əlindən gələni edirdi. Ulu öndərin Sov. İKP MK Siyasi Bürosunun üzvlüyündən və SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini postundan uzaqlaşdırılmasının səbəbləri isə hamıya bəllidir. İstedadlı kinorejissor Vaqif Mustafayevin Heydər Əliyevə həsr etdiyi silsilə sənədli filmlərində bütün bu deyilənlər öz əksini tapıb. Elə bu səbəbdən də o filmlər dünya çapında böyük əks-səda doğurmuşdu. Çünki bu ekran əsərlərində həqiqətlər elə olduğu kimi, rəngsiz-boyasız təcəssümünü tapır, bəzi qaranlıq məqamlara aydınlıq gətirilir.

Ümummilli lider istedadı, bacarığından əlavə, həm də içərisindən keçdiyi zamanın övladı idi. Onu zaman yetirmiş və bənzərsiz etmişdi. Sovet "KQB"sinin sıravi əməkdaşından general rütbəsinəcən, kommunistlər ordusunun sıra nəferindən Kreml liderlərindən birinə qədər yüksəlmək həm də tale, qismət idi.

Ömrü boyu qarşısına məqsəd qoyaraq onun ardınca sona qədər irəliləmiş, mübarizə aparmış, yorulmamış və elə bu səbəblərdən də həmişə uğura çatmışdı. İnsanlarla işləməyi, onları ram etməyi bacaran ulu öndər kütləni idarə etməyin sirlərinə, gizlinlərinə bələd idi.

Təkrar hakimiyyətə qayıdışı dönəmində Heydər Əliyev cavan deyildi, üstəlik, bütün vəzifələrini itirmiş, bundan sonra sakit təqaüdçü güzəranı keçirməklə ömrünün qalan hissəsini başa vurmalı olan bir klassik idi. Ancaq o, belə bir tale ilə barışmadı, hələ mübarizənin öndə olduğunu yəqinləşdirib yeni bir yola çıxdı. Sözsüz ki, xalqının, yurdunun belə çətin dövründə öz sözünü demək, ömrü boyunca qazandığı bilik və təcrübəni ölkəsinin yenidən dirçəlişinə sərf etmək, yenə də birinci olmaq üçün özünü həyatın növbəti burulğanına atdı. Bu, tarixi qayıdış oldu. Xalqını düşdüyü çətinliklərdən xilas etdi, dövlətçiliyi qorudu, ömrünün müəyyən hissəsini isə onun möhkəmlənməsinə, əbədi olmasına həsr etdi.

Heydər Əliyevin böyüklüyü həm də onun söz sahibi olmasında idi və sözlə savaşmağın da gözəl bilicisi idi. Şərqin yetirdiyi fövqəladə dövlət rəhbərlərindən biri Teymurləng demişdi: "Hökmdarın sözü qılıncdan iti olmalıdır". Elə Heydər Əliyev də sözünün kəsəri olan, bir sözü iki edilməyən öndər idi.

Sözə münasibətdə həssas olan ulu öndər sözün də, söz əhlinin də qədir-qiymətini, yerini, gücünü bilirdi. Onun ən böyük silahı söz idi! Onun sözü böyük, qüdrətli bir ordunun görə bilməyəcəyi işi görmək gücündə idi. Güclü, sözübütöv, nitqi rəvan!..

Heydər Əliyev bir məktəbdir, azərbaycançılıq ideologiyasından ruhlanan, ondan qaynaqlanan məktəb. Bu mənada siyasi əqidəsindən, sosial mənşəyindən asılı olmayaraq bizim hər birimiz bu məktəbin yetirmələriyik. Ulu öndər isə bu məktəbin ən mükəmməl müəllimi kimi həmişə Azərbaycanladır, bizimlədir.

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**